**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**İQTİSADİ ARAŞDIRMALAR ELMİ-TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**PƏRVİZ MEHMAN OĞLU SƏFƏROV**

# AZƏRBAYCANDA İŞSİZLİYİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

**İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I - 2014**

Dissertasiya işi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor<br>**Ramiz Kamal oğlu İsgəndərov** |
| **Rəsmi opponentlər:** | iqtisad elmləri doktoru, professor<br>**Səfər Həsən oğlu Pürhani** |
| | iqtisad elmləri namizədi, dosent<br>**Əlirza İsrəfil oğlu Məmmədov** |
| **Aparıcı təşkilat:** | Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu |

Müdafiə "__30_" _iyun____2014-cü il saat "14.00 "-da Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində İqtisadi Araşdırmalar Elmi–Tədqiqat İnstitutunda elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.052 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 6, Azərbaycan Dövlət İqtisad Universiteti, İqtisadi Araşdırmalar Elmi - Tədqiqat İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «__30__»__may_______2014-cü il tarixində göndərilmişdir.

**D.02.052 dissertasiya şurasının**
**elmi katibi, i.e.n., dosent** **N.M.İsmayılov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Beynəlxalq münasibətlər sisteminin qloballaşması hər bir ölkənin ictimai-siyasi həyatına, o cümlədən milli iqtisadiyyatına öz təsirini göstərməkdədir. Qloballaşma prosesinin doğurduğu destruktiv təzahürlər xüsusilə inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına təsirsiz ötüşmür. Bir sıra hallarda sosial problemlərin yaranmasına gətirib çıxarır. İnkişaf etmiş ölkələrdə rəqabətə davamlı məhsul istehsalının həyata keçirilməməsi əmtəələrin, kapitalın və texnologiyanın sərbəst hərəkəti fonunda müəssisələrin müflisləşməsinə gətirib çıxara bilir ki, bu da cəmiyyətdə sosial-iqtisadi problem kimi işsizliyin yaranmasını şərtləndirir.

İşsizlik cəmiyyətdə yoxsulluğun yaranmasını şərtləndirən ən mühüm amillərdən biri hesab edilir. Bu baxımdan hər bir dövlətin qarşısında duran ən başlıca vəzifə iqtisadiyyatda yeni işə yerlərinin açılmasını təmin etmək, mövcud və səmərəli xarakter daşıyan iş yerlərinin qorunub saxlanılmasına nail olmaqdan ibarətdir. Makroiqtisadi aspektdən yanaşdıqda cəmiyyətdə işsizliyin səviyyəsinin aşağı salınması baxımından dövlətin üzərinə mühüm vəzifə düşür. Belə ki, məqsədli proqramlar çərçivəsində məşğulluğun təmin edilməsinə istiqamətlənmiş tədbirlər həyata keçirilməlidir ki, bu da bilavasitə işsizliyin səviyyəsinin azaldılmasında mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, son illər dövlət tərəfindən işsizlik səviyyəsinin azaldılması istiqamətində uğurlu siyasət həyata keçirilməkdədir. Belə ki, 2003-cü ildə «Yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı» qəbul edilmişdir. Birinci Dövlət Proqramı 2003-2008-ci illəri əhatə etmiş, ikinci Dövlət Proqramı isə 2008-2015-ci illəri əhatə edir. İşsizliyin səviyyəsinin aşağı salınması baxımından ölkənin makroiqtisadi göstəricilərinin səviyyəsinin yaxşılaşdırılması mühüm əhəmiyyətə malikdir. İstər yoxsulluğun azaldılmasına, istərsə də regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə istiqamətləndirilmiş tədbirlərin müvəffəqiyyətlə reallaşdırılması nəticəsində son 5 ildə adambaşına düşən ümumi daxili məhsulun həcmi 5 dəfəyə qədər, nominal orta aylıq əməkhaqqının həcmi isə 4 dəfəyə qədər artmışdır. Ölkə üzrə yoxsulluq səviyyəsi 2003-cü ildəki 44,7 % səviyyəsindən 2013-cü ildə 5,2 % səviyyəsinə qədər aşağı düşmüşdür. Təbii ki, bütün bunlar iqtisadiyyatda işsizliyin səviyyəsinə də öz təsirini göstərmişdir. Belə ki, əgər 2003-cü ildə ölkədə işsizliyin

səviyyəsi 10,7% olmuşdursa, bu göstərici 2013-cü ildə 5%-ə qədər azaldılmışdır.

İşsizlik səviyyəsinin azaldılması baxımından regionlarda uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf proqramları mühüm əhəmiyyət kəsb edir. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)», Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» iqtisadiyyatın sahə və ərazi kəsimlərində işsizliyin səviyyəsinin azaldılmasında mühüm rol oynamışdır.

Lakin bunlara baxmayaraq hazırda işsizlik səviyyəsinin azaldılmasında dövlətin rolunun daha da aktivləşdirilməsinə mühüm ehtiyac vardır. Bu ehtiyacın müvəffəqiyyətlə qarşılanması üçün ilk növbədə daxili və xarici bazarda kifayət qədər rəqabət aparmaq iqtidarında olan mütərəqqi texnologiyaya malik müəssisələrin yaradılmasına istiqamətlənmiş tədbirlər gerçəkləşdirilməlidir. Məhz bütün bunları nəzərə alaraq "Azərbaycanda işsizliyin dövlət tənzimlənməsi istiqamətləri" mövzusunda yerinə yertirilən dissertasiya işi mövcud şəraitdə aktuallıq kəsb edir.

**Problemin öyrənilmə vəziyyəti**. İşsizlik səviyyəsi və onun azaldılması bütün dövrlərdə aktual problem kimi özünü göstərmişdir. İşsizlik səviyyəsi və onun azaldılmasında dövlət siyasəti və Azərbaycanda işsizliyin dövlət tənzimlənməsi istiqamətlərinə yönəlmiş tədbirlərin gerçəkləşdirilməsi bazar münasibətləri şəraitində öz aktuallığını hər zaman saxlamaqdadır. Əvvəlki təsərrüfatçılıq sistemində işsizliyin səviyyəsinin azaldılması istiqamətində tədbirlər mərkəzləşdirilmiş sistemin mühüm tərkib hissəsini təşkil edirdi. Bir sıra hallarda hətta problemə ideoloji aspektdən yanaşma tərzi də nümayiş etdirilir və qeyd edilirdi ki, «Sosialist iqtisadiyyatında işsizlik istisna edilir və bu planlı proporsional inkişafın təbiətindən irəli gəlir». Ümumiyyətlə problemin ideoloji aspektlərini, eləcə də əvvəlki təsərrüfatçılıq sistemində bu məsələnin mövcudluğunun hansı dərəcədə doğru olub-olmadığını təfərrüat sayaraq qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində işsizlik iqtisadi böhranların təbiətindən irəli gəlir və dövrü xarakter daşıyır.

Müasir şəraitdə işsizlik probleminin elmi-nəzəri tərəfləri, eləcə də onun aşağı salınmasının konseptual əsasları və dövlət tənzimlənməsi istiqamətləri ilə bağlı ölkəmizin iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, Ş.M.Muradov, T.Ə.Quliyev, Ə.Q.Əlirzayev, R.T.Həsənov, İ.Ş.Qarayev, R.K.İsgəndərov, S.S.Mehbalıyev, S.H.Pürhani, E.İ.Qasımova, G.A.Əzizova, C.B.Quliyev və başqaları tərəfindən dəyərli tədqiqat işləri aparılmışdır.

Xarici ölkə iqtisadçılarından C.M.Keyns, A.Smit, S.Sismondi, J.B.Sey, S.Klark, K.Marks, A.İ.Ançişkin, S.S.Şatalin, N.M.Rimaşevskaya, V.Y.Raysin, S.Q.Strumilin, V.F.Mayer, V.Q.Kracev, A.S.Revyakin, V.Erman və başqaları öz elmi tədqiqatlarında işsizliyin bu və ya digər aspektlərini araşdırmışlar.

Aparılan araşdırmalarda daha çox işsizliyin formalaşmasının nəzəri-metodoloji məsələləri, onun formaları, ayrı-ayrı tərəfləri və elementləri tədqiq olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi milli iqtisadiyyatda işsizliyin elmi-nəzəri aspektlərini araşdırmaqdan, Azərbaycan Respublikasında işsizliyin səviyyəsini qiymətləndirməkdən, Azərbaycan Respublikasinda işsizliyin səviyyəsinin aşaği salınmasında dövlət tənzimlənməsinin prioritetlərini müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatın məqsədinə müvafiq olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- Bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsi kimi əmək bazarının formalaşmasının elmi-nəzəri aspektlərinin tədqiqi;
- İşsizliyin tədqiqində müasir elmi yanaşmaların araşdırılması;
- İşsizlik səviyyəsi ilə əhalinin gəlirlərinin qarşılıqlı əlaqə mexanizminin müəyyənləşdirilməsi;
- Azərbaycan Respublikasında işsizliyin miqyası, ona təsir edən amillərin müəyyənləşdirilməsi və qiymətləndirilməsi;
- İşsizlik səviyyəsinin azaldılması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər sisteminin zəruriliyinin əsaslandırılması;
- Məşğulluq sahəsində dövlət siyasətinin işsizliyin azaldılmasına təsirinin qiymətləndirilməsi;
- İşsizliyin azaldılmasına dövlət siyasətinin regional səviyyədə təsirinin tədqiqi;

- İşsizlik səviyyəsinin azaldılmasında iqtisadi tənzimləmə mexanizmlərinin araşdırılması və ölkə üçün optimal variantın seçilməsi;
- Azərbaycanda orta müddətli perspektivdə işsizliyin azaldılması məqsədilə həyata keçirilən məşğulluq siyasətinin təkmilləşdirilməsinə dair tövsiyələrin işlənməsi.

**Tədqiqatın obyekti**: Tədqiqatın obyektini milli iqtisadiyyatın sahə və ərazi kəsimləri təşkil edir.

**Tədqiqatın predmeti**: Tədqiqatın predmetini işsizliyin səviyyəsinin aşağı salınmasına istiqamətlənmiş dövlət siyasəti təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları**: Tədqiqat işinin nəzəri-metodoloji əsasını respublikanın və xarici ölkələrin iqtisadçı alimlərinin əsərləri, bu sahədə Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq hüquqi normativ aktları təşkil etmişdir.

Dissertasiya işinin yerinə yetirilməsində iqtisadi statistik, müşahidə, təhlil, analiz-sintez üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası**: Dissertasiya işinin yerinə yetirilməsi zamanı Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarından geniş şəkildə istifadə edilmişdir. Tədqiqat işində internet şəbəkəsindən, onun informasiya bazasından da geniş şəkildə istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**: Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- qloballaşma şəraitində işsizliyin səviyyəsinə təsir edən daxili və xarici amillər müəyyənləşdirilmişdir;
- işsizliyin səviyyəsinin aşağı salınmasına dövlətin sosial siyasətinin təsiri müəyyən edilmişdir;
- regionların inkişaf xüsusiyyətləri nəzərə alınmaqla işsizliyin səviyyəsi ilə inflyasiyanın səviyyəsi arasında asılılıq qiymətləndirilmişdir;
- işsizlik səviyyəsinin aşağı salınmasında dövlətin makroiqtisadi tənzimlənməsinin zəruriliyi əsaslandırılmışdır;

- işsizlik səviyyəsinin aşağı salınmasına iqtisadi stimullaşdırma və daxili bazarın qorunmasına istiqamətlənmiş tədbirlərin təsiri aşkarlanmışdır;
- iqtisadiyyatın investisiyalaşdırılmasının məşğulluğun təmin edilməsində rolu tədqiq edilmişdir;
- iqtisadiyyatın ayrı-ayrı sahələrinin biznes və investisiya cəlbediciliyinin yüksəldilməsi ilə əhali məşğulluğunun təmin edilməsi arasında qarşılıqlı əlaqə müəyyənləşdirilmişdir.

**Tədqiqatın təcrübi əhəmiyyəti**. Dissertasiya işinin nəticə və təkliflərindən işsizliyin səviyyəsinin azaldılması ilə bağlı regional proqramların işlənib hazırlanmasında, eləcə də regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və nəticələrinin tətbiqi**: Dissertasiya işinin əsas müddəaları və nəticələri "Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyanın rolu" mövzusunda III Beynəlxalq elmi-praktiki konfransda, «Azərbaycan iqtisadıyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri» mövzusunda Beynəlxalq konfransda, "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər və inkişaf meyilləri" mövzusunda Respublika elmi-praktiki konfransında məruzə edilmiş və bəyənilmişdir. Dissertasiya işinin əsas nəticələri 13 elmi məqalə və tezisdə öz əksini tapmışdır.

Azərbaycanda işsizliyin dövlət tənzimlənməsi istiqamətləri mövzusunda hazırlanmış dissertasiya işinin əsas nəticələri Dövlət Məşğulluq Xidmətində istifadə üçün qəbul edilmiş və müvafiq arayış verilmişdir (18.11.2011-ci il tarixli, № A-254).

**İşin həcmi və quruluşu**: Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 159 səhifəni əhatə edir. Dissertasiya işində 124 ədəbiyyat mənbəyi, 17 cədvəl verilmişdir.

## İŞİN PLANI

**Giriş**

**I fəsil. İşsizlik probleminin araşdırılmasının elmi-nəzəri və metodoloji əsasları**

1.1. Əmək münasibətləri və əmək bazarının formalaşmasının konseptual əsasları

1.2. İşsizliyin sosial-iqtisadi mahiyyəti və formaları
1.3. İşsizliyin səviyyəsi ilə əhali gəlirləri və sosial təminat sisteminin qarşılıqlı əlaqəsi
**II fəsil. Azərbaycan Respublikasında işsizlik səviyyəsinin qiymətləndirilməsi**
2.1 Azərbaycan Respublikasında işsizliyin səviyyəsi və ona təsir edən amillərin qiymətləndirilməsi
2.2. İşsizliyin səviyyəsinin aşağı salınması dövlətin sosial-iqtisadi siyasətinin əsas prioriteti kimi
**III fəsil. Azərbaycan Respublikasında işsizliyin dövlət tənzimlənməsinin prioritetləri**
3.1. Dövlətin səmərəli məşğulluq siyasəti işsizlik probleminin həllinin əsas şərti kimi
3.2. Regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinin işsizlik səviyyəsinin aşağı salınmasına təsiri
3.3. İşsizlik səviyyəsinin iqtisadi tənzimləmə vasitələrindən istifadə etməklə aşağı salınması yolları
**Nəticə**
**İstifadə olunmuş ədəbiyyat**

## DİSSERTASİYA İŞİNİN QISA MƏZMUNU

### 1.Əmək münasibətləri və əmək bazarının formalaşmasının konseptual əsasları

Dissertasiya işinin birinci fəslində əmək münasibətləri və əmək bazarının formalaşmasının konseptual əsasları, işsizliyin sosial-iqtisadi mahiyyəti və formaları, işsizlik səviyyəsinin aşağı salınmasına, məşğulluğun təmin edilməsinə əməkhaqqı, gəlirlər və sosial təminat mexanizmlərinin təsiri araşdırılmışdır.

Qeyd edilir ki, bazar iqtisadiyyatı üçün işsizlik ən xarakterik cəhətlərdəndir. Həqiqətən, tarixi təcrübə göstərir ki, bazar iqtisadiyyatına keçmiş ölkələrdə praktiki olaraq həmişə müəyyən qədər işsizlərin mövcudluğu adi hal hesab edilir. İşsizlik - işçi qüvvəsinin (iqtisadi fəal əhalinin) müəyyən hissəsinin əmtəə istehsalında məşğul olmaması nəticəsində yaranan sosial-iqtisadi təzahürdür. İşsizlər iqtisadiyyatın bu və ya digər sferasında məşğul olanlarla yanaşı ölkədə işçi qüvvəsinə olan təklifin tələbi üstələməsi nəticəsində yaranır.

Qeyd etmək lazımdır ki, dünya praktikasında işsizliyin səviyyəsi 1%-dən 3%-ə qədər olduqda bu tamamilə yol verilən, 5% olduqda optimal səviyyəli, 7% və daha çox olduqda isə sosial cəhətdən təhlükəli hədd sayılır.

Bazar və qeyri-bazar tipli iqtisadiyyatda adətən iki təzahür: əhali işsizliyi və iş yerlərinin işsizliyi, daha doğrusu iş yerinə malik olmayan əhali ilə yanaşı boş iş yerləri də mövcud olur. Bazar iqtisadiyyatında işsiz əhalinin olması iş yerlərinə tələbin artmasına gətirib çıxarır, qeyri-bazar və keçid tipli iqtisadiyyatda isə tamamilə başqa mənzərə müşahidə olunur.

İqtisadi ədəbiyyatda işsizlər və işləməyənlər anlayışı iqtisadçılar tərəfindən birmənalı qəbul edilmir. Beynəlxalq praktikaya və Beynəlxalq Əmək Təşkilatı tərəfindən hazırlanmış sənədlərə və konvensiyalara istinadən belə qənaətə gəlmək olar ki, işləmək arzusunda olub, müstəqil olaraq iş axtarmaqla fəal məşğul olan, lakin hər şeydən əvvəl boş iş yerlərinin və ya kifayət qədər professional təhsilin olmaması üzündən iş tapa bilməyən vətəndaşlar işsiz hesab edilir. Məşğulluq haqqında qanunvericiliyə uyğun olaraq heç bir yerdə işləməyən və əməkhaqqı almayan, Dövlət Məşğulluq Xidməti orqanlarında qeydiyyatdan keçən, bu orqanlar tərəfindən təklif edilən müvafiq iş yerində işləməyə hazır olan hər bir əmək qabiliyyətli vətəndaş rəsmi işsiz statusuna malik olur. İşləməyənlər isə prinsipial olaraq iş axtarmır və demək olar ki, bu və ya digər səbəbdən işləmək arzusunda olmur.

Qeyd etmək lazımdır ki, işsizlərə adətən müxtəlif səbəblər üzündən işdən azad olunanlar deyil, həm də iş yerini könüllü itirənlər və yeni iş yeri tapmağa cəhd göstərən şəxslər aiddir. İşsizliyi doğuran səbəblər baxımından onun strukturuna işçi qüvvəsinin dörd əsas kateqoriyası daxildir: işdən azad olunma nəticəsində iş yerini məcburi olaraq itirənlər, iş yerini könüllü itirənlər, əmək bazarında yaranmış fasilələrdən sonra işsiz olanlar və əmək bazarının ilk dəfə yaranması ilə bağlı iş yerini itirənlər. Bu kateqoriyalar arasında qarşılıqlı münasibət hər şeydən əvvəl iqtisadi tsiklin fazalarından asılıdır.

Amerikan iqtisadçısı Artur Oukenin fikrincə işsizliyin faktiki səviyyəsi onun təbii səviyyəsindən yüksək olarsa, onda cəmiyyətdə ümumi daxili məhsulun azalması müşahidə edilir. Ouken hesablamalarına görə işsizliyin faktiki səviyyəsi onun təbii səviyyəsindən 1% yüksək olarsa onda cəmiyyətdə ümumi daxili məhsulun həcmi 2,5% aşağı düşür. Bu prinsip iqtisadiyyatda Ouken qanunu adlanır.

İş qüvvəsi bazarında çoxşaxəli daxili tənzimləyicilərin olmaması, həmçinin əmək bazarının səmərəli formalaşmasının sosial cəhətdən mühüm əhəmiyyət kəsb etməsi elmi cəhətdən əsaslandırılmış tənzimlənmənin həyata keçirilməsinə kəskin ehtiyac yaratmışdır. Məşğulluq sferasında elmi əsaslandırılmış tənzimlənmə sisteminin yaradılması hazırki şəraitdə islahatların ən mühüm sosial dayaqlarının formalaşmasına gətirib çıxarır. Doğrudur, son zamanlar Məşğulluq haqqında qanunun qəbul edilməsi, əmək birjalarının təşkili, işsizliyə görə rəsmi statusun verilməsi bu sahədə müəyyən işlər görüldüyünə sübutdur. Lakin bütün bunlar çox hallarda ləng və qeyri-çevik xarakter daşımaqla əhalinin sosial müdafiəsində əhəmiyyətli dönüşə gətirib çıxarmır.

Odur ki, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq əmək bazarının çevik tənzimlənmə sistemi yaradılmalıdır. Əmək bazarının dövlət tənzimlənməsinin ən mühüm prinsiplərinə aşağıdakılar daxildir:

- bütün növ ehtiyatlardan səmərəli istifadəni təmin edən iqtisadiyyatın mütərəqqi inkişafı;
- mütərəqqi texnologiyanın və informasiya sistemlərinin tələbatlarına uyğun olaraq işçi qüvvəsinin keyfiyyət xarakteristikasının dəyişməsi;
- əhalinin nisbətən zəif kateqoriyalarının sosial müdafiəsinin təmin edilməsi;
- tənzimlənmənin mərkəzləşdirilmiş sahə və regional proqramlara uyğunlaşdırılması;
- əmək bazarının tənzimlənməsi vasitəsilə iqtisadi, sosial və siyasi stabilliyin təmin edilməsi.

Əmək bazarının dövlət tənzimlənməsi sistemini dörd əsas istiqamətə ayırmaq olar. Birincisi, məşğulluğun stimullaşdırılması və iş yerlərinin sayının artırılması proqramı; ikincisi, işçi qüvvəsinin hazırlanması və peşə yönümünün dəyişdirilməsinə istiqamətləndirilmiş proqramlar; üçüncüsü, muzdlu qaydada iş yerlərinin yaradılmasına kömək proqramı; dördüncüsü, işsizliyə görə sosial müavinətlərin verilməsi və sosial sığorta proqramı.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yuxarıda qeyd edilən istiqamətlər dövlətin əmək bazarına təsirinin heçdə hamısı deyildir. Belə ki, bütün bunlarla yanaşı iş qüvvəsi bazarının dolayı (qeyri müstəqil) tənzimlənmə üsulları da mövcuddur: dövlətin vergi, pul-

kredit və amortizasiya siyasəti. Çevik sosial müdafiə siyasətinin həyata keçirilməsi, əmək münasibətləri və insan hüquqları sahəsində qəbul edilmiş qanunvericilik aktları əmək bazarına heç də az təsir etmir. Beləliklə də, müasir şəraitdə əmək bazarının dövlət tənzimlənməsi iqtisadi, inzibati, qanunvericilik, təşkilati və s. tədbirlərin kompleks sistemini özündə əks etdirir.

## 2. Azərbaycan Respublikasında işsizliyin səviyyəsi və ona təsir edən amillərin qiymətləndirilməsi

Məlum olduğu kimi, Azərbaycan müstəqilliyə qovuşduğu ilk dövrlərdə (1991-1995-ci illərdə) əmək bazarındakı mövcud vəziyyət daha kəskin hal almışdır. Bu əlamətlərə xalq təsərrüfatında məşğul olanların sayının nisbətən azalması ilə yanaşı, iqtisadiyyatda məşğul olmayan əmək qabiliyyətli əhalinin, o cümlədən işsizlərin sayının xeyli artması, iş qüvvəsi axıcılığının sürətlənməsi, işdən çıxanların sayının işə qəbul edilənlərin sayını xeyli üstələməsi, iş yerlərinin, xüsusilə işsizlərin sayının ixtisar olması, işsizlik müddətinin miqyasının yüksəlməsi və s. kimi hallar aid idi.

1991-1995-ci illərdə respublika iqtisadiyyatında məşğul olanların sayı 3,1% azalaraq 3 732 000 nəfərdən 3 613 000 nəfərə düşmüşdüsə, iqtisadiyyatda məşğul olmayanların sayı 53,7% artaraq 399 900 nəfərdən 614 800 nəfərə, işsizlik statusu alanların sayı isə 1991-1995-ci illərdə 7,2 dəfə artaraq 39 000 nəfərdən 280 800 nəfərə gəlib çatmışdır. Təkcə, 1995-ci il ərzində respublikada işdən azad olunanların sayı işə qəbul olunanların sayından 1,8 dəfə, o cümlədən sənayedə 2 dəfə, tikintidə və kənd təsərrüfatında 1,9 dəfə, ticarət və ictimai iaşədə 3,4 dəfə, elm və elmə xidmətdə 1,2 dəfə, kredit və dövlət sığortasında 1,7 dəfə çox olmuşdur. Öz arzusu ilə işdən azad olunanların sayı isə bütün işdən çıxanların üçdə ikisini təşkil etmişdir.

İşsizlik ilk növbədə hazırki şəraitdə sərfəli əməkhaqqı əldə edə bilməyən iqtisadi fəal əhalinin iqtisadi fəaliyyət sahələrindən kənarda qalmasını özündə əks etdirir. Ümumiyyətlə işsiz əhali kateqoriyalarının hərəkətinə diqqət yetirdikdə belə qənaətə gəlmək olar ki, onların sayının artmasına müxtəlif amillər təsir göstərir ki, bu amillərə ilk növbədə struktur dəyişikliyi ilə əlaqədar iş yerlərini itirənləri və friksion işsizlik tendensiyalarını aid etmək olar. Məlum həqiqətdir ki, əmək qabiliyyətli əhali daha çox əməkhaqqı səviyyəsi olan sahələrdə

çalışmağa meyllidir. Lakin onu da nəzərə almaq lazımdır ki, bu tendensiya tədricən reallaşır və bu zaman əhalinin müvəqqəti zaman kəsiyində işsiz qalması halları baş verir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatda işsiz əhalinin sayının artmasını şərtləndirən amillər içərisində son zamanlar qlobal maliyyə böhranının təsiri ilə yaranan destruktiv tendensiyaları da şamil etmək olar. Ümumiyyətlə qaçqınlar və məcburi köçkünlər problemi də 1993-cü ildən etibarən Azərbaycan Respublikasında işsizlik probleminin yaranmasını şərtləndirən amillər içərisində önəmli rol oynayır. 2013-cu ilin əvvəlinə ölkə üzrə 36467 nəfər işsiz statusu almışdır. İşsiz statusu almış 36467 nəfərin 15107 nəfərini qadınlar, 17931 nəfərini 29 yaşına qədər gənclər, 11929 nəfərini qaçqınlar və məcburi köçkünlər, 2415 nəfərini ilk dəfə işaxtaranlar təşkil etmişdir. 2013-cü ildə işsiz kimi qeydiyyatda olan 36467 nəfərin 8593 nəfəri və ya 23,6%-i struktur dəyişikliyi ilə əlaqədar, 13880 nəfər və ya 38,1%-i kadr axını nəticəsində iş yerlərini itirmişlər. Bundan əlavə, 3978 nəfər və ya 10,9%-i təhsil müəssisələrinin məzunları, 3733 nəfər və ya 10,2%-i hərbi xidmətdən tərxis olunanlar, 6701 nəfər və ya 18,4%-i əmək fəaliyyətində 1 ildən çox fasiləsi olanlardır. 2013-cü ildə 2923 nəfər işsiz statusu almışdır ki, onun da 1030 nəfərini qadınlar, 291 nəfərini qaçqınlar və məcburi köçkünlər təşkil etmişdir. 2923 nəfər işsiz statusu alanların 541 nəfərini struktur dəyişikliyi ilə əlaqədar iş yerini itirənlər, 1707 nəfərini kadr axını nəticəsində işdən azad olunanlar, 279 nəfərini hərbi xidmətdən tərxis olunanlar, 244 nəfərini isə əmək fəaliyyətində 1 ildən çox fasiləsi olanlar təşkil edir. 2013-cü ildə 3153 nəfər işsiz əhali kateqoriyasına müavinət təyin edilmişdir ki, onun da 1139 nəfərini qadınlar, 825 nəfərini 29 yaşadək gənclər, 329 nəfərini isə qaçqın və məcburi köçkünlər təşkil etmişdir. Qeyd etmək lazımdır ki, son illər cəmiyyətdə işsizliyin səviyyəsinin artmasını şərtləndirən ən mühüm amillərdən biri kimi struktur dəyişiklikləri önəmli rol oynayır. İqtisadiyyatda struktur dəyişiklikləri bir qayda olaraq təsərrüfat fəaliyyətinə daha ixtisaslı işçilərin cəlb edilməsini şərtləndirir. Təhlil göstərir ki, son illər iqtisadiyyatda struktur dəyişiklikləri ilə əlaqədar iş yerlərini itirənlər əsas etibarilə dövlət mülkiyyətində fəaliyyət göstərən müəssisələrdə müşahidə edilmişdir. Bundan əlavə iqtisadiyyatın sahə strukturunda da bu tip tendensiyalar özünü daha qabarıq şəkildə biruzə verir. Bu baxımdan 2013-cü ildə struktur dəyişikliyi ilə əlaqədar işdən çıxmış işçilər haqqında məlumat aşağıdakı cədvəl 1-də verilmişdir.

*Cədvəl 1*

*2013-cü ildə struktur dəyişikliyi ilə əlaqədar işdən çıxmış işçilər haqqında məlumat*

| Göstəricinin adı | İşdən çıxmış işçilər haqqında məlumat vermiş müəssisə-lərin sayı | Həmin müəssisə-lərdə işçilərin siyahı sayı | Cəmi | Qadınlar | İxtisası olanlar | Peşəsi olanlar |
|---|---|---|---|---|---|---|
| Cəmi | 55 | 19461 | 317 | 126 | 173 | 144 |
| O cümlədən mülkiyyət növləri üzrə | | | | | | |
| Dövlət mülkiyyəti | 40 | 15984 | 266 | 112 | 126 | 140 |
| Xüsusi mülkiyyət | 9 | 2911 | 40 | 13 | 37 | 3 |
| Xarici mülkiyyət | 2 | 255 | 5 | 0 | 5 | 0 |
| Birgə (xarici qarışıq) mülkiyyət | 4 | 311 | 6 | 1 | 5 | 1 |
| O cümlədən | | | | | | |
| Mədənçıxarma sənayesi | 2 | 389 | 4 | 0 | 4 | 0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 2 | 226 | 9 | 0 | 7 | 2 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 2 | 201 | 2 | 0 | 2 | 0 |
| Tikinti | 1 | 1011 | 4 | 0 | 3 | 1 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 2 | 202 | 46 | 12 | 8 | 38 |
| Nəqliyyat və anbar təsərrüfatı | 4 | 194 | 7 | 1 | 5 | 2 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1 | 49 | 6 | 1 | 0 | 6 |
| İnformasiya və rabitə | 7 | 799 | 18 | 1 | 8 | 10 |
| Maliyyə və sığorta fəaliyyəti | 3 | 1702 | 31 | 12 | 31 | 0 |
| Peşə, elmi və texniki fəaliyyət | 2 | 65 | 4 | 0 | 2 | 2 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 7 | 549 | 33 | 5 | 23 | 10 |
| Təhsil | 7 | 10675 | 80 | 65 | 56 | 24 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 3 | 1655 | 5 | 2 | 1 | 4 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 3 | 463 | 30 | 22 | 11 | 19 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 9 | 1281 | 38 | 5 | 12 | 26 |

**Mənbə**:Cədvəl 1. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Cədvəl 1-dən göründüyü kimi, 2013-cü ildə struktur dəyişiklikləri ilə əlaqədar işdən çıxmış işçilər haqqında 55 müəssisə məlumat vermişdir. Bütövlükdə 55 müəssisədə 19461 nəfər işçi çalışmışdır ki, 2013-cü ildə struktur dəyişikliyi ilə əlaqədar olaraq bu işçilərin 317 nəfəri öz iş yerlərini itirmişdir. İş yerlərini itirənlərin 126-nı qadınlar, 173-nü ixtisası olanlar, 144-ni isə peşəsi olanlar təşkil etmişdir. Cədvəldən göründüyü kimi, 2013-cü ildə struktur dəyişikliyi ilə əlaqədar olaraq işdən çıxmış 317 nəfər işçinin 266 nəfəri dövlət mülkiyyətində fəaliyyət göstərən müəssisələrin payına düşür. Dövlət mülkiyyətində fəaliyyət göstərən müəssisələrdə 112 qadın, eləcə də 173 ixtisası, 144 nəfər peşəsi olan işçi öz iş yerini tərk etməli olmuşdur. 2013-cü ildə struktur dəyişikliyi ilə əlaqədar olaraq öz yerlərini tərk etmiş 40 işçi xüsusi mülkiyyətdə fəaliyyət göstərən müəssisələrin payına düşür. 40 nəfərin 13-ü qadın olmaqla onların 37 nəfəri ixtisaslı, 3 nəfəri isə peşəsi olanlardan ibarətdir. 2013-cü ildə ildə struktur dəyişikliyi ilə əlaqədar olaraq işdən çıxmış işçilərin 5 nəfəri xarici mülkiyyətli müəssisələrdə, 6 nəfəri isə qarışıq mülkiyyətə malik müəssislərin payına düşür.

İqtisadiyyatda struktur dəyişiklikləri ilk növbədə onun sahə strukturuna da öz təsirini göstərmişdir. Cədvəl 1-dən göründüyü kimi, işdən çıxmış işçilər barədə məlumat verən informasiya və rabitə sektorunda fəaliyyət göstərən 15 müəssisədə 184 nəfər öz iş yerini tərk etmişdir ki, onun da 59-u qadın olmaqla 124 nəfəri ixtisaslı, 60 nəfəri isə peşəsi olan işçilərdir.

## 3.Regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinin işsizlik səviyyəsinin aşağı salınmasına təsiri

Məlum olduğu kimi, bazar iqtisadiyyatı şəraitində iqtisadi fəaliyyət növlərində məşğul əhalinin əldə etdikləri əməkhaqqının səviyyəsi onların bu və ya digər sahəyə yönlənməsini səciyyələndirən ən mühüm cəhətlərdən biri kimi çıxış edir. Bu baxımdan xüsusilə muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı istər iqtisadiyyatın sahəvi sektorlarında, istərsə də mülkiyyət növləri üzrə strukturunda əhalinin transferinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı aşağıdakı cədvəl 2.-də öz əksini tapmışdır.

*Cədvəl 2*

*Muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı (manat)*

| Fəaliyyət növlərinin adı | 2005 | | | 2009 | | | 2013 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | cəmi | dövlət | qeyri-dövlət | cəmi | dövlət | qeyri-dövlət | cəmi | dövlət | qeyri-dövlət |
| Ölkə üzrə – cəmi | 123.6 | 89.1 | 191.9 | 298.0 | 263.4 | 357.2 | 331.5 | 276.4 | 423.9 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 41.6 | 41.8 | 41.2 | 134.3 | 138.4 | 125.0 | 160.3 | 145.1 | 189.8 |
| Mədənçıxarma sənayesi | 507.3 | 233.6 | 1368.6 | 992.8 | 652.6 | 147.1 | 1004.7 | 670.6 | 1436.4 |
| Emal sənayesi | 115.9 | 117.1 | 114.8 | 267.5 | 311.8 | 242.3 | 320.5 | 337.0 | 309.5 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 134.6 | 120.1 | 235.9 | 322.7 | 325.0 | 256.0 | 349.4 | 347.3 | 381.8 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 64.4 | 63.6 | 87.7 | 189.9 | 179.9 | 412.2 | 197.7 | 189.1 | 275.4 |
| Tikinti | 233.3 | 130.6 | 331.2 | 440.6 | 341.9 | 515.6 | 505.8 | 362.0 | 626.8 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 120.0 | 83.7 | 121.0 | 215.2 | 263.0 | 214.3 | 282.8 | 255.5 | 283.2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 124.6 | 121.1 | 149.9 | 349.2 | 320.7 | 504.6 | 395.1 | 350.8 | 533.9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 157.9 | 58.7 | 166.6 | 297.9 | 321.9 | 297.1 | 333.7 | 379.0 | 332.5 |
| İnformasiya və rabitə | 204.8 | 231.0 | 160.7 | 496.7 | 360.9 | 799.2 | 531.3 | 363.5 | 854.7 |
| Maliyyə və sığorta fəaliyyəti | 311.7 | 186.2 | 383.1 | 812.8 | 724.7 | 821.9 | 990.2 | 732.4 | 1017.9 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 56.3 | 41.0 | 96.9 | 175.8 | 134.5 | 259.3 | 168.1 | 141.1 | 280.4 |
| Peşə, elmi və texniki fəaliyyət | 324.4 | 103.1 | 1063.8 | 585.3 | 272.7 | 1331.7 | 592.2 | 300.6 | 1244.1 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 448.5 | 96.3 | 1571.3 | 456.9 | 394.2 | 546.1 | 526.7 | 407.0 | 773.8 |

*Cədvəl 2-nin davamı*

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 133.9 | 169.3 | 43.0 | 350.1 | 412.2 | 126.7 | 376.5 | 423.3 | 141.1 |
| Təhsil | 66.0 | 65.6 | 102.1 | 260.0 | 259.8 | 273.7 | 271.8 | 272.2 | 248.7 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 45.2 | 42.8 | 147.2 | 154.1 | 140.3 | 502.8 | 155.2 | 151.7 | 244.8 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 51.4 | 49.8 | 93.9 | 204.2 | 159.0 | 810.0 | 208.4 | 165.9 | 992.6 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 75.8 | 66.0 | 80.6 | 250.5 | 210.7 | 260.3 | 280.3 | 231.6 | 293.1 |

**Mənbə**: Cədvəl 2. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Cədvəldən göründüyü kimi, 2005-ci illə müqayisədə 2013-cü ildə iqtisadiyyatda muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2,7 dəfə artaraq 231,5 manata çatmışdır. 2005-ci ildə dövlət bölməsində çalışanların əməkhaqqı 89,1 manat təşkil etmişdirsə, qeyri-dövlət bölməsində bu göstərici 191,2 manata çatmışdır. 2013-cü ildə isə dövlət bölməsində muzdla çalışanların orta aylıq nominal əməkhaqqı 3,1 dəfə, qeyri-dövlət sektorunda muzdla çalışanların orta aylıq əməkhaqqı isə 2,2 dəfə yüksələrək 423,9 manata çatmışdır.

Qeyd etmək lazımdır ki, xüsusilə mədənçıxarma sənayesində istər dövlət və istərsə də qeyri-dövlət bölməsində əməkhaqqının səviyyəsi digər bölmələrlə müqayisədə kifayət qədər yüksək olmuşdur. 2005-ci ildə mədənçıxarma sənayesində muzdla çalışanların əməkhaqqı ölkə üzrə orta göstəricini 4,1 dəfə, kənd, meşə təsərrüfatı və balıqçılıq sektorunda muzdla işləyən işçilərin əməkhaqqı səviyyəsini 12,1 dəfə, emal sənayesində müvafiq səviyyəni 4,3 dəfə, elektrik enerjisi, qaz və buxar istehsalı, təchizatı sektorunu 3,7 dəfə, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunu 7,8 dəfə, daşınmaz əmlakla əlaqədar əməliyyatlar sektorunda müvafiq səviyyəni 9 dəfə, təhsil sektorunda müvafiq səviyyəni 7,6 dəfə, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sektorunda müvafiq səviyyəni 11,2 dəfə, istirahət, əyləncə və incəsənət sahəsində müvafiq səviyyəni 9,8 dəfə

qabaqlamışdır. Bu tendensiya xüsusilə qeyri-dövlət sektorunda özünü daha aktiv şəkildə biruzə vermişdir. Belə ki, 2005-ci ildə mədənçıxarma sənayesinin qeyri-dövlət sektorunda muzdla çalışanların orta aylıq nominal əməkhaqqı 1368,6 manat təşkil etmişdir. Təbii ki, belə bir şəraitdə adı çəkilən sahənin qeyri-dövlət bölməsində orta aylıq nominal əməkhaqqı səviyyəsi digər sahələrdəki müvafiq göstəricini daha yüksək sürətlə qabaqlamışdır. Adı çəkilən tendensiya 2013-cü ildə də özünü biruzə vermişdir.

İşsiz əhali kateqoriyalarının işlə təmin edilməsi həm cəmiyyətdə sosial sabitliyin qorunub saxlanılmasında, həm də əhalinin gəlirlərinin formalaşmasında və onların minimum istehlak büdcələrinin təmin edilməsində əhəmiyyətli rol oynayır. İnkişaf etmiş ölkələrin praktikasında işsiz əhali kateqoriyalarının ictimai işlərə cəlb edilməsi kifayət qədər geniş yayılmışdır. İşsizliyin səviyyəsinin aşağı salınması baxımından bazar iqtisadiyyatı şəraitində məşğulluq siyasətinin prioritetləri əmək qabiliyyətli əhalinin işgüzar aktivliyinin yüksəldilməsinə, eləcə də əmək potensialından tam səmərəli istifadənin təmin edilməsinə əlverişli şəraitin yaradılmasını özündə əks etdirir. Əmək qabiliyyətli əhalinin işgüzar aktivliyinin təmin edilməsi sosial-iqtisadi inkişafın orientirləri və eləcə də qrup və korporativ maraqların spesifik xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilməlidir. Bu zaman işsizliyin səviyyəsinin yüksəlməsinə imkan verməyən stabilləşdirici faktorlardan istifadə edilməsi ön plana çəkilməlidir. Aparılan araşdırmalar göstərir ki, əmək bazarında tələb və təklif arasındakı keyfiyyətcə uyğunsuzluğun mövcud olması baxımından, hətta iqtisadi artımın və iqtisadi yüksəlişin mövcud olduğu illərdə belə, işçi qüvvəsinin təklifinin məhdudlaşdırılması halları baş verir. Bu proses, xüsusilə iqtisadi böhran zamanı özünü daha kəskin şəkildə büruzə verir və beləliklə işsizliyin səviyyəsinin yüksəldilməsi özünü böhranlı situasiyalarda daha kəskin şəkildə meydana çıxarır.

## 4. Məşğulluğun strukturu və onun işsizlik probleminə təsiri

Araşdırmaların nəticəsi göstərir ki, istər səmərəli məşğulluğun formalaşdırılması, istərsə də məşğulluğun sərbəst şəkildə seçilməsi imkanlarının reallaşdırılması, nəticə etibarilə iqtisadiyyatda bu sahədə çevik mexanizmin yaradılmasını tələb edir. Təbii ki, iqtisadiyyatda bu sahədə formalaşan böyük mexanizm sosial problemlərin operativ

həllinə və onların tənzimlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Təbii ki, bütün bunlar, həm də əmək bazarında yarana bilən destruktiv tendensiyaların qarşısının alınmasında əhəmiyyətli rol oynaya bilər.

Odur ki, iqtisadiyyatda struktur dəyişikliklərinin strateji məqsədlərinə müvafiq olaraq məşğulluq siyasəti və məşğulluq mexanizminin reallaşdırılması orta müddətli perspektivdə aşağıdakı vəzifələri yerinə yetirilməsinə istiqamətlənməlidir:

- xüsusilə böhranlı situasiyalarda böhranın zərərli təsirlərinin mülayimləşdirilməsi məqsədi ilə antiböhran idarəetmə sistemi tətbiq edilməli və həmin sistemin başlıca hərəkətverici qüvvəsini iqtisadiyyatda məşğulluğun təmin edilməsinə yönəldilmiş tədbirlərin həyata keçirilməsi təşkil etməlidir. Bundan əlavə, iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsi və istehsalın modernləşdirilməsi bu prosesin ən mühüm tərkib hissəsi kimi çıxış etməlidir. Əhalinin sahibkarlıq fəallığının inkişaf etdirilməsi məqsədilə çoxsektorlu iqtisadiyyatın formalaşdırılmasına diqqət artırılmalıdır;
- kiçik biznes və özünüməşğulluq fəaliyyətinin stimullaşdırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi. Bu zaman nəzərə almaq lazımdır ki, kiçik biznes və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi və bu baxımdan özünüməşğulluğun təmin edilməsi, xüsusilə iqtisadi böhranlar şəraitində daha çox yaşam imkanına malik olur. Daha doğrusu, adı çəkilən fəaliyyət növlərinin manevr imkanları kifayət qədər geniş olur, bu da bütövlükdə istehsal və xidmət sahələrinin dirçəldilməsinə əlverişli şərait yaradır;
- yeni iş yerlərinin yaradılması və onların dövlət tərəfindən dəstəklənməsi;
- əmək bazarında işçi qüvvəsinə olan tələb və təklifin razılaşdırılmış mexanizminin çevikliyinin təmin edilməsinə istiqamətləndirilmiş ictimai fəaliyyətin genişləndirilməsi və onun statusunun dəyişdirilməsi;
- bazar münasibətləri şəraitində insanların motivasiyasının gücləndirilməsi və bu baxımdan işçilərin, xüsusilə ixtisaslı kadrların rəqabətədavamlılığının formalaşdırılması;
- bazar münasibətləri şəraitində əhalinin ələbaxımlılıq psixologiyasının zəiflədilməsi, insanların əməyə motivasiyasının gücləndirilməsi məqsədilə ikitərəfli ixtisasartırma sisteminin formalaşdırılması;
- əmək bazarında risklərin effektiv şəkildə sığortalanma sisteminin tətbiqi və onun davamlı olaraq təkmilləşdirilməsi.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, dövlətin məşğulluq siyasətinin effektiv şəkildə reallaşdırılması, əslində yeni iş yerlərinin yaradılması və kifayət qədər perspektivli iş yerlərinin saxlanılmasına istiqamətlənmiş tədbirlərin reallaşdırılmasından bilavasitə asılıdır. Bu tədbirlərin effektiv şəkildə reallaşdırılması məqsədilə, adətən məqsədli proqramlar həyata keçirilir və həmin məqsədli proqramlar aşağıdakı vəzifələrin yerinə yetirilməsinə istiqamətlənir:

- iqtisadi sahələrinin inkişafının prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, eləcə də regionların sosial-iqtisadi potensialının səmərəli istifadə edilməsi və məşğulluğun optimal strukturunun müəyyənləşdirilməsi əsasında yeni iş yerlərinin yaradılmasının baş sxeminin hazırlanması;
- yeni iş yerlərinin yaradılması və perspektivli iş yerlərinin saxlanılması məqsədilə zəruri şəraitin formalaşdırılmasına istiqamətləndirilmiş təşkilati və normativ hüquqi bazanın işlənib hazırlanması;
- istər özəl sektorda, istərsə də dövlət sektorunda yeni iş yerlərinin yaradılması və perspektivli iş yerlərinin saxlanılmasına istiqamətlənmiş tədbirlərin maliyyələşdirilmə mexanizminin təkmilləşdirilməsi və onun informasiya təminatının yaxşılaşdırılması;
- regionların sosial-iqtisadi inkişaf proqramlarının, eləcə də dövlət tərəfindən həyata keçirilən məqsədli proqramların bir qayda olaraq ölkənin regionlarında və iqtisadiyyatın ayrı-ayrı sahələrində məşğulluğun təmin edilməsinə təsirini müəyyənləşdirmək məqsədi ilə məcburi sosial ekspertizaların işlənib hazırlanması və həyata keçirilməsi. Bu zaman başlıca kriteriya – yeni iş yerlərinin yaradılması və perspektivli iş yerlərinin saxlanılması olmalıdır;
- yeni iş yerlərinin yaradılması və perspektivli iş yerlərinin saxlanılması məqsədilə həyata keçirilən tədbirlərin bütün səviyyələrdə kollektiv müqavilələr də daxil olmaqla, sosial partnyorluq praktikasının təkmilləşdirilməsi.

**Dissertasiya işinin nəticə və təkliflər bölməsində** Azərbaycan Respublikasında işsizliyin dövlət tənzimlənməsi istiqamətləri ilə bağlı elmi cəhətdən əsaslandırılmış təkliflər işlənib hazırlanmışdır.

**Dissertasiya işinin əsas elmi nəticələrinə dair müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**

1. Əmək bazarında işsizlik. “Əmək və Sosial Problemlər” elmi əsərlər toplusu. Bakı- 2009. V buraxılış, səh.152-157.
2. İşsizliyin aradan qaldırılmasında innovasion texnologiyaların tətbiqi dövlət siyasətinin prioritet istiqaməti kimi. “Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyanın rolu” mövzusunda III Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı- ELM-2009, səh. 249-252
3. Проблемы занятости молодежи. «Проблемы экономики». Москва-2010. Изд. Спутник. №1(35), с.93-97.
4. Снижение уровня безработицы: актуальные проблемы и государственная политика «Научная перспектива». Уфа-2010. №5. с.30-34.
5. Проблемы безработицы в Европе. «Актуальные проблемы гуманитарных и естественных наук». Москва-2010. №5. с.94-102.
6. Безработица: понятие, формы, экономические и социальные последствия. «Azərbaycan iqtisadıyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri» mövzusunda Respublika elmi-praktiki Bakı-2010, səh.928-931
7. Роль и место службы занятости азербайджанской республики в обеспечении достойной занятости. «Альманах современной науки и образования». Тамбов- 2010 г. №2(33), с. 192-195.
8. Məşğulluq problemləri: görülmüş işlər, aktual məsələlər, işsizliyin aradan qaldırılması yolları.
   AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. Bakı-2010. №2. səh.36-43.
9. Bazar iqtisadiyyatında işsizlik və işçi qüvvəsinin dövlət nizama salınması. AMEA İqtisadiyyat İnstitutu Elmi Əsərlər. Bakı-2010. №1, səh.331-336.
10. İşsizliyin azaldılması həyat səviyyəsini xarakterizə edən amil kimi. “Əmək və Sosial Problemlər” elmi əsərlər toplusu. Bakı-2011. №1 (7), səh.131-136.
11. Azərbaycanda insan inkişafı problemlərinin həllində məşğulluq orqanlarının aktiv tədbirlərinin rolu. “Azərbaycan regionlarının

sosial-iqtisadi inkişafı: problemlər və inkişaf meyilləri mövzusunda Respublika elmi-praktiki konfransın materialları”. Bakı-2011, səh. 240-242

12. Снижение уровня безработицы: актуальные проблемы и государственная политика. «Креативная экономика». Москва-2012. №2, с.118-120.

13. Məşğulluğun aktual məsələləri: milli və beynəlxalq təcrübə. İşsizliyin azaldılması həyat səviyyəsini xarakterizə edən amil kimi. “Əmək və Sosial Problemlər” elmi əsərlər toplusu. Bakı-2012. №2 (10), səh.121-127.

**Парвиз Мехман оглу Сафаров**

# Направления государственного регулирования безработицы в Азербайджане

## РЕЗЮМЕ

Во вводной части диссертации отражены актуальность темы, современное состояние изучения проблемы, цели и задачи исследования, его объект и субъект, научная новизна, практическое значение и т.д.

Первая глава диссертационной работы называется "Теоретические и методологические основы научного исследования проблемы безработицы". Здесь в основном исследуются концептуальные основы формирования трудовых отношений, социально-экономическая сущность и формы безработицы, снижение уровня безработицы, влияние на обеспечение занятости механизмов заработной платы, доходов и социального обеспечения.

Отмечается, что безработица является одной из самых характерных черт рыночной экономики. Действительно, исторический опыт показывает, что в странах, осуществивших переход к рыночной экономике, практически всегда нормальным считается наличие определенного количества безработных. Безработица – это явление, возникающее в результате неучастия в товарном производстве определенной части рабочей силы (экономически активного населения). Безработные возникают вследствие превышения предложения над спросом на рабочую силу наряду с наличием в стране занятых в той или иной сфере экономики.

Вторая глава диссертационной работы называется «Оценка уровня безработицы в Азербайджанской Республике". В этой главе анализируется текущее состояние безработицы и факторы, оказывающие на нее влияние, взамосвязь между снижением уровня безработицы и государственной политикой.

Третья глава диссертационной работы называется "Приоритеты государственного регулирования безработицы в Азербайджанской Республике". В данной главе исследуется роль государственной политики занятости в снижении уровня безработицы, роль ускорения социально-экономического развития регионов в снижении уровня безработицы и обеспечении занятости населения, а также роль средств государственного регулирования в снижении уровня безработицы.

В разделе «выводы и рекомендации» диссертационной работы были разработаны научно обоснованные предложения в отношении направлений государственного регулирования безработицы в Азербайджанской Республике.

**Parviz Mehman Safarov**

## Directions of state regulation to unemployment in Azerbaijan

## SUMMARY

In the introductory part of the thesis reflects the relevance of the topic , the current state of the problem, aims and objectives of the study, its object and subject, scientific novelty, practical value, etc.

The first chapter of the thesis is called "Theoretical and methodological bases of research the problem of unemployment". Here mainly researched conceptual basis for the formation of labor relations, socio-economic nature and forms of unemployment, reduction of unemployment, the impact on employment mechanisms wages, incomes and social security.

Notes that unemployment is one of the most distinctive features of a market economy. Indeed, history shows that countries make the transition to a market economy, is almost always considered a normal presence of a certain number of unemployed. Unemployment - a phenomenon that occurs as a result of non-participation in commodity production, a certain part of the labor force ( economically active population). Unemployed are due to oversupply of labor, along with the presence in the country engaged in this or that sphere of the economy.

The second chapter of the thesis entitled "Assessment of the level of unemployment in the Republic of Azerbaijan". This chapter analyzes the current state of unemployment and the factors that influence it, interaction relationship between lower unemployment and public policy.

The third chapter of the thesis is called "Priorities for state regulation of unemployment in the Republic of Azerbaijan". This chapter examines the role of the state employment policy in reducing unemployment , the role of accelerating socio - economic development of regions in reducing unemployment and providing employment as well as the role of government regulation in reducing unemployment .

In the "Conclusions and Recommendations" of the thesis were scientifically sound suggestions for areas of state regulation of unemployment in the Republic of Azerbaijan.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННЫЙ
ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ
ЭКОНОМИЧЕСКИХ ИССЛЕДОВАНИЙ**

*На правах рукописи*

**ПАРВИЗ МЕХМАН оглы САФАРОВ**

# НАПРАВЛЕНИЯ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ БЕЗРАБОТИЦЫ В АЗЕРБАЙДЖАНЕ

**Специальность: 5312.01 – Отраслевая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по экономике**

**БАКУ - 2014**

*Kağız formatı 60x84 1/16.*
*Həcmi 1,5 ç.v. Sayı  100.*

---------------------------------------------------------------------

*“ İqtisad Universiteti “ Nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6*